# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
## Q Ə R A R

**“Standartlaşdırma sahəsində normativ sənədlərin hazırlanması, razılaşdırılması, ekspertizası, qəbul edilməsi, dövlət reyestrinə və fonduna daxil edilməsi, dəyişiklik edilməsi və nəşri Qaydaları”nın təsdiq edilməsi haqqında**

“Standartlaşdırma haqqında” Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1587-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 iyul tarixli 780 nömrəli Fərmanının 1.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Standartlaşdırma sahəsində normativ sənədlərin hazırlanması, razılaşdırılması, ekspertizası, qəbul edilməsi, dövlət reyestrinə və fonduna daxil edilməsi, dəyişiklik edilməsi və nəşri Qaydaları” təsdiq edilsin (əlavə olunur).

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 27 may 2024-cü il

№ 284

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2024-cü il 27 may
tarixli 284 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Standartlaşdırma sahəsində normativ sənədlərin hazırlanması, razılaşdırılması, ekspertizası, qəbul edilməsi, dövlət reyestrinə və fonduna daxil edilməsi, dəyişiklik edilməsi və nəşri

# QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Standartlaşdırma haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 5.4-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və standartlaşdırma sahəsində normativ sənədlərin hazırlanması, razılaşdırılması, ekspertizası, qəbul edilməsi, dövlət reyestrinə və fonduna daxil edilməsi, dəyişiklik edilməsi və nəşri qaydalarını müəyyən edir.

1.2. Bu Qaydalarda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. **milli standartlaşdırma qurumu** - Qanunun 1.0.18-ci maddəsinə əsasən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin (bundan sonra - AİBNDX) tabeliyində olan "Azərbaycan Standartlaşdırma İnstitutu" publik hüquqi şəxs;

1.2.2. **milli standartlaşdırma proqramı** - dövlət standartlarının hazırlanması işlərinin planlaşdırılması məqsədilə milli standartlaşdırma qurumu tərəfindən formalaşdırılan, təsdiq edilən və nəşr edilən proqram;

1.2.3. **maraqlı tərəflər** - standartlaşdırma üzrə normativ sənədləri tətbiq edən və ya həmin sənədlərin hazırlanmasında maraqlı olan dövlət orqanları (qurumları), hüquqi və fiziki şəxslər.

1.3. Aşağıdakılara dair texniki şərtlər (bildirişlər) şamil edilmişdir:

1.3.1. xammal, material, yarımfabrikatların texnoloji sənaye və məişət tullantılarına;

1.3.2. vahid məmulatlara;

1.3.3. təcrübə partiyasına.

1.4. Bu Qaydalarda istifadə olunan digər anlayışlar Qanunda nəzərdə tutulmuş mənaları ifadə edir.

## 2. Standartlaşdırma sahəsində normativ sənədlərin hazırlanması və razılaşdırılması

**2.1. Dövlət standartları**

2.1.1. Dövlət standartlarının işlənilib hazırlanması milli standartlaşdırma proqramı çərçivəsində standartlaşdırma üzrə texniki komitələr vasitəsilə həyata keçirilir. Texniki komitə olmadıqda milli standartlaşdırma qurumu Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Standartlaşdırma üzrə texniki komitələrin yaradılması və fəaliyyətinin təşkili Qaydaları"na uyğun olaraq aidiyyəti texniki komitənin yaradılmasını təmin edir.

2.1.2. Maraqlı tərəflər öz təşəbbüsləri ilə dövlət standartlarının ilkin layihəsini işləyib hazırlaya və müvafiq texniki komitəyə təqdim edə bilərlər. Müraciətə dövlət standartının hazırlanmasının aktuallığını əsaslandıran sənəd əlavə olunur. Texniki komitəyə təqdim edilmiş dövlət standartının ilkin layihəsi milli standartlaşdırma proqramında nəzərdə tutulmayan dövlət standartı ilə bağlı olduqda texniki komitə ilkin layihə ona daxil olduqdan sonra 3 (üç) iş günü ərzində Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Milli standartlaşdırma proqramının formalaşdırılması və onda dəyişiklik edilməsi Qaydası"na uyğun olaraq həmin dövlət standartının hazırlanması məqsədilə milli standartlaşdırma proqramında dəyişiklik edilməsi üçün milli standartlaşdırma qurumu qarşısında məsələ qaldırır. Texniki komitənin müraciəti əsasında milli standartlaşdırma proqramında dəyişiklik edilib-edilməməsi ilə bağlı qəbul edilmiş qərar barədə milli standartlaşdırma qurumu tərəfindən həm maraqlı şəxsə, həm də aidiyyəti texniki komitəyə 2 (iki) iş günü müddətində məlumat verilir.

2.1.3. Dövlət standartının hazırlanması milli standartlaşdırma proqramına daxil edildikdən sonra və ya milli standartlaşdırma proqramında nəzərdə tutulmuş dövlət standartının hazırlanmasına başlanıldıqda bu barədə milli standartlaşdırma qurumunun rəsmi internet saytında bildiriş yerləşdirilir.

2.1.4. Texniki komitə milli standartlaşdırma proqramında nəzərdə tutulmuş müddətdə dövlət standartının layihəsini Qanunun 7.1-ci, 7.3-cü, 7.4-cü və 7.5-ci maddələri ilə müəyyən edilmiş tələblərə əsasən hazırlayır və aşağıdakıları nəzərə alır:

2.1.4.1. elmi tədqiqatların, patentlərin, ixtiraların, sınaqların və ölçmələrin nəticələrini;

2.1.4.2. standartlaşdırma obyektinə dair tələbləri müəyyənləşdirən beynəlxalq standartları və digər sənədləri;

2.1.4.3. yeni növ məhsulların, proseslərin və xidmətlərin tətbiqindən əldə edilən təcrübəni.

2.1.5. Dövlət standartının layihəsi hazırlanarkən müvafiq sahə üzrə digər texniki komitələrin iştirakının zərurəti yarandıqda layihəni hazırlayan texniki komitə milli standartlaşdırma qurumuna bununla bağlı müraciət edir. Milli standartlaşdırma qurumu 2 (iki) iş günü müddətində aidiyyəti texniki komitəyə bu barədə məlumat verir. İştirakı zəruri olan texniki komitə iştirakdan imtina edə bilməz.

2.1.6. Dövlət standartının layihəsi bu Qaydaların 2.1.4-cü yarımbəndində nəzərdə tutulmuş qaydada hazırlandıqdan sonra texniki komitə tərəfindən layihə ilə birlikdə aşağıdakı sənədlər milli standartlaşdırma qurumuna təqdim edilir:

2.1.6.1. dövlət standartının işlənilib hazırlanmasının aktuallığının, texniki və iqtisadi zəruriliyinin əsaslandırılması;

2.1.6.2. standartlaşdırma obyektinin xüsusiyyətləri və ona dair tələblər;

2.1.6.3. standartlaşdırma obyektinə dair texniki tənzimləmə və standartlaşdırma sahəsində texniki normativ hüquqi aktların təhlili;

2.1.6.4. dövlət standartının layihəsinin texniki reqlamentlərlə və standartlaşdırma üzrə sənədlərlə uyğunluğu;

2.1.6.5. ehtimal olunan istifadəçilərin siyahısı;

2.1.6.6. dövlət standartının layihəsinin işlənilməsi zamanı istifadə olunmuş elmi tədqiqatların, patentlərin, ixtiraların, sınaqların və ölçmələrin nəticələrinə dair sənədlərin surətləri;

2.1.6.7. dövlət standartının ilkin layihəsini hazırlayan maraqlı tərəflər (dövlət orqanları, təsərrüfat subyektləri, digər hüquqi və fiziki şəxslər) haqqında məlumatlar (adı, ünvanı və əlaqə məlumatları);

2.1.6.8. razılaşdırılmalı olan dövlət orqanlarının siyahısı.

2.1.7. Milli standartlaşdırma qurumu texniki komitə tərəfindən təqdim edilmiş dövlət standartının layihəsini və bu Qaydaların 2.1.6-cı yarımbəndində nəzərdə tutulmuş sənədləri daxil olduqdan sonra 3 (üç) iş günü müddətində təkliflərin təqdim edilməli olduğu texniki komitə haqqında məlumatlar (texniki komitənin adı, ünvanı, katibinin əlaqə məlumatları) qeyd edilməklə rəsmi internet səhifəsində ictimai müzakirə üçün yerləşdirir və razılaşdırılması zəruri olan dövlət orqanlarına göndərir.

2.1.8. Milli standartlaşdırma qurumunun rəsmi internet saytında dövlət standartlarının layihələrinin ictimai müzakirəsi və dövlət orqanları (qurumları) tərəfindən təkliflərin verilməsi 60 (altmış) təqvim günü müddətində həyata keçirilir. İctimai müzakirəyə çıxarılmış dövlət standartının layihəsi ilə bağlı fiziki və hüquqi şəxslər təkliflərini aşağıdakı məlumatlarla birlikdə təqdim edirlər:

2.1.8.1. fiziki şəxsin adı, soyadı, atasının adı, hüquqi şəxsin adı və ünvanı, əlaqə məlumatları;

2.1.8.2. verilən təklifin əsaslandırılması (müvafiq sənədlərin surəti əlavə edilə bilər).

2.1.9. Dövlət orqanları (qurumları) tərəfindən müəyyən edilmiş müddət ərzində münasibət bildirilmədikdə layihə razılaşdırılmış hesab olunur. İctimai müzakirə nəticəsində verilən təkliflərdə bu Qaydaların 2.1.8-ci yarımbəndində nəzərdə tutulan məlumatlar olmadıqda həmin təkliflərə baxılmır.

2.1.10. Texniki komitə təqdim edilmiş rəylərə 1 (bir) ay müddətində baxır və rəy nəzərə alınmadıqda bu barədə rəy müəllifinə əsaslandırılmış məlumat verir.

2.1.11. Bu Qaydaların 2.1.10-cu yarımbəndi ilə müəyyən edilmiş müddət başa çatdıqdan sonra dövlət standartının layihəsi texniki komitənin iclasında (dövlət standartının layihəsinin hazırlanmasında aidiyyəti texniki komitə iştirak etdikdə onlar da səsvermədə iştirak edir) səsverməyə çıxarılır. Dövlət standartının layihəsi konsensus əsasında qəbul edilir. İclasda iştirak edən üzvlərin yarıdan çoxu layihənin lehinə səs verdikdə konsensus əldə edilmiş hesab olunur. İclasda iştirak edən üzvlərin yarıdan çoxu layihənin əleyhinə səs verdikdə layihə onların təklifləri əsasında 10 (on) iş günü müddətində yenidən işlənilməlidir. Səslər bərabər olduqda texniki komitənin sədrinin səsi həlledici hesab edilir.

2.1.12. Bu Qaydaların 2.1.11-ci yarımbəndində göstərilən müddət başa çatdıqdan sonra texniki komitənin sədri (və ya onu əvəz edən şəxs) tərəfindən 2 (iki) iş günü müddətində dövlət standartının layihəsinin ikinci müzakirəsi üçün iclas çağırılır. Bu Qaydaların 2.1.11-ci yarımbəndi ilə müəyyən edilmiş qaydada səsvermə keçirilir. Nəzərə alınmamış rəylərlə əlaqədar rəy müəllifinə məlumat verildikdən sonra standartlaşdırma üzrə texniki komitə konsensus əsasında dövlət standartını qəbul edir və aşağıdakıları özündə ehtiva edən sənədlər toplusunu tərtib edərək milli standartlaşdırma qurumuna göndərir:

2.1.12.1. kağız və elektron daşıyıcılarda dövlət standartının layihəsini, eləcə də dövlət standartının müzakirəyə çıxarılan layihəsinin ilkin variantını;
2.1.12.2. izahedici qeydləri;
2.1.12.3. yekun rəyi;
2.1.12.4. ictimai müzakirə zamanı təqdim edilmiş təklifləri (nəzərə alınan və alınmayan);
2.1.12.5. dövlət standartının layihəsinin razılaşdırılmasını təsdiq edən sənədləri;
2.1.12.6. standartın layihəsi işlənən elmi tədqiqatların, patentlərin, ixtiraların, sınaqların və ölçmələrin nəticələrinin surətlərini.
2.1.13. Dövlət standartının layihəsi milli standartlaşdırma qurumuna daxil olduqdan sonra dövlət standartlarının işlənilib hazırlanması prosesinin yekunlaşdırılması haqqında milli standartlaşdırma qurumunun rəsmi internet saytında bildiriş yerləşdirilir.

**2.2. İlkin dövlət standartları**

2.2.1. İlkin dövlət standartlarının layihələri standartlaşdırma subyektlərinin təşəbbüsü ilə hazırlanır. İlkin dövlət standartlarının layihələrinin qəbul edilməsi üçün baxılması sahə üzrə texniki komitələrin fəaliyyəti çərçivəsində həyata keçirilir.
2.2.2. İlkin dövlət standartının layihəsini hazırlayan subyektlər onun qəbul edilməsinin zəruriliyini əsaslandırmaqla layihəni aidiyyəti texniki komitəyə göndərir.
2.2.3. Milli standartlaşdırma qurumunun təşəbbüsü ilə hazırlanan ilkin dövlət standartlarının layihələri də aidiyyəti texniki komitələrdə hazırlanır.
2.2.4. Texniki komitə təqdim edilmiş ilkin dövlət standartının layihələrinə 3 (üç) iş günü müddətində baxır. Layihə qüvvədə olan və ya milli proqramda nəzərdə tutulmuş dövlət standartının layihəsi ilə eyni olduqda onun qəbul edilməsindən imtina edilir və bu barədə 2 (iki) iş günü müddətində müraciət edən şəxsə yazılı və elektron formada məlumat verilir. Layihələrdə imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə aidiyyəti standartlaşdırma subyektinə 5 (beş) iş günü müddətində məlumat verilir və göstərilən çatışmazlıqlar 10 (on) iş gün müddətində aradan qaldırılmadıqda müraciət baxılmamış saxlanılır.
2.2.5. İlkin dövlət standartlarının layihələrinin texniki komitə tərəfindən hazırlanması və razılaşdırılması prosesi bu Qaydaların 2.1-ci bəndinə uyğun olaraq tənzimlənir.

2.2.6. İlkin dövlət standartları elmi tədqiqatların (sınaqların), ölçmələrin nəticələri və innovasiyalı yeni növ malın (işin, xidmətin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun tətbiqi ilə əldə edilən praktik təcrübələrin əsasında hazırlanır.

2.2.7. İlkin dövlət standartının layihəsinin hazırlanması və razılaşdırılması müddəti 90 (doxsan) iş günündən artıq olmamalıdır.

2.2.8. İlkin dövlət standartı milli standartlaşdırma qurumu tərəfindən 2 (iki) il müddətinə qəbul edilir.

2.2.9. İlkin dövlət standartının qüvvədən düşmə müddətinə 3 (üç) ay qalmış həmin ilkin dövlət standartı milli standartlaşdırma qurumunun rəsmi internet saytında 30 təqvim günü müddətinə ictimai müzakirəyə çıxarılır. Həmin müddətdə zərurət yarandıqda ilkin dövlət standartı milli standartlaşdırma qurumu tərəfindən aidiyyəti orqanlara rəy bildirilməsi üçün göndərilir. İctimai müzakirə dövründə aidiyyəti orqanlar rəylərini texniki komitələrə təqdim edirlər.

2.2.10. Texniki komitə 30 (otuz) iş günü müddətində təqdim edilmiş rəylərin təhlilini apararaq, eyni zamanda ilkin dövlət standartının yoxlanılmasını və qiymətləndirilməsini həyata keçirir. İlkin dövlət standartının qiymətləndirilməsi aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

2.2.10.1. ilkin dövlət standartının Azərbaycan Respublikasının normativ hüquqi aktlarından irəli gələn tələblərə uyğunluğu;

2.2.10.2. ilkin dövlət standartının elmi-texniki səviyyəsinin təkrar təhlili;

2.2.10.3. ilkin dövlət standartının qüvvədə olan texniki reqlamentlərə uyğunluğunun təhlili.

2.2.11. Aparılmış qiymətləndirmənin nəticəsində texniki komitə ilkin dövlət standartının qüvvədə qalması, dövlət standartı kimi təsdiq edilməsi və ya qüvvədən düşməsi barədə bu Qaydaların 2.1.11-ci və 2.1.12-ci yarımbəndləri ilə müəyyən edilmiş qaydada qərar qəbul edir və bu qərar milli standartlaşdırma qurumuna təqdim edilir.

2.2.12. Milli standartlaşdırma qurumu bu Qaydaların 3-cü hissəsinə uyğun olaraq ilkin dövlət standartının ekspertizasını keçirir.

2.2.13. Milli standartlaşdırma qurumu ekspertizanın nəticəsində aşağıdakı qərarlardan birini qəbul edir:

2.2.13.1. ilkin dövlət standartının dövlət standartı kimi qəbul edilməsi barədə;

2.2.13.2. ilkin dövlət standartının növbəti 2 (iki) il müddətinə qüvvədə qalması barədə;

2.2.13.3. ilkin dövlət standartının qüvvədən düşməsi barədə.

2.2.14. İlkin dövlət standartının dövlət standartı kimi qəbul edilməsi barədə qərar qəbul edildikdə bu Qaydaların 4-cü və 6-cı hissələrinə uyğun iş aparılır.

2.2.15. İlkin dövlət standartının növbəti 2 (iki) il müddətinə qüvvədə qalması barədə qərar qəbul edildikdə bu Qaydaların 4-cü hissəsinə uyğun iş aparılır.

2.2.16. İlkin dövlət standartının qüvvədən düşməsi barədə qərar qəbul edildikdə 5 (beş) iş günü müddətində milli standartlaşdırma qurumu tərəfindən aidiyyəti texniki komitəyə məlumat verilir və qərar milli standartlaşdırma qurumunun rəsmi internet səhifəsində yerləşdirilir.

2.3. Beynəlxalq, regional, dövlətlərarası və xarici dövlətlərin standartları (bundan sonra - beynəlxalq standart) milli standartlaşdırma qurumunun qərarı ilə dövlət standartı kimi qəbul edilərək Azərbaycan Respublikasının ərazisində birbaşa tətbiqi "Standartlaşdırma haqqında" Azərbaycan Respublikası Qanununun 18.2-ci maddəsinə uyğun olaraq həyata keçirilir.

**2.4. Texniki şərtlər**

2.4.1. Texniki şərtlər müvafiq sahədə dövlət standartı və ya Azərbaycan Respublikasında birbaşa tətbiq olunan beynəlxalq, regional, dövlətlərarası və xarici dövlət standartları olmadığı təqdirdə və ya təsərrüfat subyekti tərəfindən müəyyən edilmiş yeni texniki həllərin istifadəsini təmin etmək məqsədilə təsərrüfat subyektləri tərəfindən hər hansı mala (işə, xidmətə), onunla əlaqəli prosesə (o cümlədən idarəetmə sisteminə), istehsal metoduna dair işlənilib hazırlanır və qəbul edilir. Texniki şərtlərin hazırlanması prosedurunu təsərrüfat subyekti müstəqil müəyyən edir.

2.4.2. Təsərrüfat subyekti texniki şərti onun qəbul edildiyi tarixdən 1 (bir) ay müddətində "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinə uyğun olaraq tərtib edilmiş ərizəni (VÖEN qeyd edilməklə) aşağıdakı sənədlərlə birlikdə milli standartlaşdırma qurumuna göndərir:

2.4.2.1. dövlət standartına uyğun tərtib edilmiş mala (işə, xidmətə), onunla əlaqəli prosesə (o cümlədən idarəetmə sisteminə), istehsal metoduna dair texniki şərtləri (üç nüsxədə təsərrüfat subyekti tərəfindən imzalanır və möhür vurulur (olduqda);

2.4.2.2. məhsula dair ilk dəfə işlənilib hazırlanan texniki şərtlər üçün təcrübə nümunəsinin (təcrübə partiyasının) qəbul sınağı aktı;

2.4.2.3. texnoloji təlimat;

2.4.2.4. akkreditasiya edilmiş sınaq laboratoriyasında aparılan tədqiqatın (sınağın) və ya müayinələrin nəticələri;

2.4.2.5. dövlət qeydiyyatına alınmış pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin tədqiqat (sınaq) işlərinin nəticəsi;

2.4.2.6. texniki sənədlər;

2.4.2.7. məhsulun texniki pasportu.

2.4.5. Milli standartlaşdırma qurumu bu Qaydaların 2.4.2-ci yarımbəndində nəzərdə tutulmuş sənədlər daxil olduğu gündən 15 (on beş) gün müddətində Qanuna, Azərbaycan Respublikasının normativ hüquqi aktlarından irəli gələn tələblərə və müvafiq sahədə mövcud olan texniki reqlamentlərin tələblərinə uyğunluğunu müəyyən etmək məqsədilə həmin sənədlərə baxılmasını təmin edir. Sənədlərdə imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə bu barədə 3 (üç) iş günü müddətində təsərrüfat subyektinə məlumat verilir. Çatışmazlıqlar 5 (beş) iş günü müddətində aradan qaldırılmadıqda müraciət baxılmamış saxlanılır.

## 3. Standartlaşdırma sahəsində normativ sənədlərin ekspertizası

3.1. Milli standartlaşdırma qurumu tərəfindən ilkin dövlət standartlarının layihəsinin, dövlət standartlarının layihəsinin, beynəlxalq standartların və texniki şərtin layihəsinin ekspertizası keçirilir.

3.2. Dövlət standartının və ilkin dövlət standartının layihələrinin, həmçinin beynəlxalq standartın ekspertizasının məqsədi aşağıdakılardır:

3.2.1. Azərbaycan Respublikası qanunvericiliyinin və texniki reqlamentlərin tələblərinə uyğunluğun müəyyən edilməsi;

3.2.2. ekspertiza üçün təqdim edilmiş standartlaşdırma sahəsində normativ sənədin layihəsinin qüvvədə olan standartlaşdırma sahəsində normativ sənədlərin tələblərini təkrarlamaması;

3.2.3. dövlət standartının və ilkin dövlət standartının layihəsinin razılaşdırılmasının tamlığı barədə yekun rəylərin təhlili;

3.2.4. bu Qaydalarda nəzərdə tutulmuş dövlət standartının və ilkin dövlət standartının layihəsinin hazırlanması və razılaşdırılması tələblərinə riayət olunmasının müəyyən edilməsi;

3.2.5. standartlaşdırma obyektinə dair tələbləri özündə əks etdirən qabaqcıl beynəlxalq standartın tələblərinə uyğunluğunun müəyyən edilməsi.

3.3. Milli standartlaşdırma qurumu layihə daxil olduğu gündən 7 (yeddi) iş günü müddətində təqdim edilmiş sənədlərin bu Qaydaların 2.1.12-ci yarımbəndində göstərilən sənədlər toplusuna uyğun tərtib edildiyini yoxlayır, sənədlərdə çatışmazlıqlar aşkar edildikdə bu barədə texniki komitəyə məlumat verilir. Çatışmazlıqlar 7 (yeddi) iş günü müddətində aradan qaldırılmalıdır.

3.4. Çatışmazlıqlar aşkar edilmədikdə və ya aşkar edilən çatışmazlıqlar aradan qaldırıldıqda dövlət standartının, ilkin dövlət standartının layihələrinin və beynəlxalq standartın ekspertizası milli standartlaşdırma qurumuna daxil olduğu gündən 30 (otuz) iş günü müddətində aparılır. Ekspertiza nəticəsində layihə ilə bağlı əsaslandırılmış rəy olduqda həmin layihə yenidən işlənilməsi üçün aidiyyəti texniki komitəyə rəy ilə birlikdə qaytarılır.

3.5. Milli standartlaşdırma qurumu bu Qaydaların 2.4.2-ci yarımbəndinə uyğun olaraq təqdim edilmiş texniki şərtlərə dair sənədlər toplusunun tamlığını 15 (on beş) iş günü müddətində Qanundan, Azərbaycan Respublikasının normativ hüquqi aktlarından, müvafiq texniki reqlamentlərin və standartlaşdırma üzrə normativ sənədlərdən irəli gələn tələblərə uyğunluğu baxımından ekspertizasını keçirir və qərar qəbul edir.

3.6. Milli standartlaşdırma qurumunun texniki şərtlərə dair sənədlər toplusunun tamlığını 15 (on beş) iş günü müddətində Qanundan, Azərbaycan Respublikasının normativ hüquqi aktlarından, müvafiq texniki reqlamentlərin və standartlaşdırma üzrə normativ sənədlərdən irəli gələn tələblərə uyğun olmaması barədə rəyi təsərrüfat subyektinə təqdim edilmədikdə, həmin texniki şərt təsərrüfat subyekti tərəfindən istifadə oluna bilər.

## 4. Standartlaşdırma sahəsində normativ sənədlərin qəbul edilməsi, dövlət reyestrinə və fonduna daxil edilməsi

4.1. Dövlət standartının və ilkin dövlət standartının layihələrinin, həmçinin beynəlxalq standartın ekspertizasına dair rəy müsbət olduqda milli standartlaşdırma qurumu tərəfindən qərar qəbul edilərək aşağıdakı məlumatlarla birlikdə 2 (iki) iş günü müddətində dövlət reyestrinə daxil edilir:

4.1.1. standartın adı;

4.1.2. standartın işarəsi;

4.1.3. standartın qeydiyyat tarixi və nömrəsi;

4.1.4. standartların beynəlxalq təsnifat qrupu (beynəlxalq standartlar kodu-BSK);

4.1.5. standartın təsdiqi haqqında qərarın tarixi və nömrəsi;

4.1.6. ilkin dövlət standartını və dövlət standartını hazırlayan texniki komitənin adı;

4.1.7. standartın qüvvəyəminmə tarixi.

4.2. Standartların və texniki şərtlərin işarələnməsi milli standartlaşdırma qurumu tərəfindən aşağıdakı formada aparılır:

4.2.1. dövlət standartının işarələnməsi “AZS” nişanı, aralıq məsafə ilə ayrılmış qeydiyyat nömrəsi, iki nöqtə ilə ayrılan dövlət standartının təsdiq edildiyi ili göstərən dörd rəqəm və mötərizədə nəşr olunan sənədin dilini göstərən ikihərfli kod əsasında həyata keçirilir.

Nümunə:

AZS 0000:2000 (az);

4.2.2. ilkin dövlət standartının işarələnməsi “AZS İS” nişanı, aralıq məsafə ilə ayrılmış qeydiyyat nömrəsi, iki nöqtə ilə ayrılan dövlət standartının təsdiq edildiyi ili göstərən dörd rəqəm və mötərizədə nəşr olunan sənədin dilini göstərən ikihərfli kod əsasında həyata keçirilir.

Nümunə:

AZS İS 0000:2000 (az);

4.2.3. dövlət standartı kimi qəbul edilərək Azərbaycan Respublikasının ərazisində birbaşa tətbiq edilən beynəlxalq standartın işarələnməsi “AZS” nişanından, aralıq məsafə ilə ayrılmış beynəlxalq standartın orijinalının rəsmi dilində olan işarəsindən, nömrəsindən (qəbul olunma ili qeyd olunmadan) və iki nöqtə ilə ayrılan dövlət standartının təsdiq olunma ilindən ibarətdir.

Nümunə:

AZS ISO 0000-0:2000;

AZS EN 0000-0:2000;

AZS APİ 0000-0:2000;

AZS ASTM 0000-0:2000;

AZS ГОСТ 0000:2000.

Dövlət standartının mətnində onun identik (IDT) olduğu standartın nişanı, nömrəsi, qəbul olunduğu ili, redaksiyası Azərbaycan və ingilis dillərində əks olunur.

Nümunə:

Bu standart Beynəlxalq Standart IEC 61646, nəşr 2.0 (2008-05) ilə eynidir (IDT)

This standard is identical (IDT) to the International Standard IEC 61646, edition 2.0 (2008-05);

4.2.4. beynəlxalq standart əsasında işlənilib hazırlanan dövlət standartının işarələnməsi "AZS" nişanından aralıq məsafəsi ilə ayrılmış qeydiyyat nömrəsindən, iki nöqtə ilə ayrılan dövlət standartının təsdiq edildiyi ili göstərən dörd rəqəmdən, mötərizədə qeyd olunmuş beynəlxalq standartın orijinalının rəsmi dilində nişanından və iki nöqtə ilə ayrılan beynəlxalq standartın qəbul edildiyi ili göstərən dörd rəqəmdən ibarətdir.

Nümunə:

AZS 899:2019 (ISO 7844-1:2017).

Dövlət standartının mətnində onun hansı standart əsasında (MOD, NEQ) işlənilib hazırlandığı beynəlxalq standartın nişanı, nömrəsi, qəbul olunduğu il və redaksiyası Azərbaycan və ingilis dillərində əks olunur.

Nümunə:

bu standart IEC 61646, nəşr 2.0 (2008-05) Beynəlxalq Standartı əsasında işlənilmişdir (NEQ)

This standard is non-identical (NEQ) to the International Standard IEC 61646, edition 2.0 (2008-05);

4.2.5. texniki şərtlərə milli standartlaşdırma qurumu tərəfindən "AZ TŞ" indeksindən, ondan aralıq məsafə ilə ayrılmış təsərrüfat subyektinə məxsus VÖEN nömrəsindən, nöqtədən sonra təsərrüfat subyektinə məxsus texniki şərtlərin qeydiyyat nömrəsindən və iki nöqtə ilə ayrılan texniki şərtlərin təsdiq edildiyi ili göstərən dörd rəqəmdən ibarət işarə verilir.

Nümunə:

AZ TŞ 0000000000.000:2000.

4.3. Dövlət reyestrinə daxil edilmiş ilkin dövlət standartı, dövlət standartı və beynəlxalq standarta dair standartlaşdırma üzrə dövlət fonduna aşağıdakı məlumatlar daxil edilir:

4.3.1. standartlaşdırma üzrə normativ sənədin adı (Azərbaycan və ingilis dillərində);

4.3.2. standartlaşdırma üzrə normativ sənədin tam mətni;

4.3.3. standartlaşdırma üzrə normativ sənədin nişanı;

4.3.4. standartlaşdırma üzrə normativ sənədin ilkin və ya təkrar nəşri barədə məlumat;

4.3.5. düzəlişlərin edilməsi haqqında məlumat;

4.3.6. AİBNDX tabeliyində olan "Azərbaycan Standartlaşdırma İnstitutu" publik hüququ şəxsin loqosu;

4.3.7. standartlaşdırma üzrə normativ sənədin istinad nömrəsi;

4.3.8. məlumatı özündə əks etdirən QR kodu;

4.3.9. standartlaşdırma üzrə normativ sənədi hazırlayan texniki komitə haqqında məlumat;

4.3.10. standartın hazırlanması müddəti (başlanma və bitmə tarixi);

4.3.11. standartın təsdiq olunması haqqında qərarın nömrəsi və tarixi;

4.3.12. dövlət standartı ilə müəyyən edilən tələblərin beynəlxalq standartlara, norma, qayda və tövsiyələrə, digər dövlətlərin müvafiq mütərəqqi milli standartlarına, elm, texnika və texnologiyanın müasir nailiyyətlərinə əsaslanmasını müəyyən etmək üçün standartın növbəti yoxlama müddəti haqqında məlumat;

4.3.13. razılaşdırma haqqında məlumatlar (məktubların və rəylərin nüsxələri).

4.4. Dövlət reyestrinə və standartlaşdırma üzrə dövlət fonduna daxil edilmiş dövlət standartı, ilkin dövlət standartı və ölkədə tətbiq edilən beynəlxalq standart barədə məlumatlar (adı, işarəsi, qeydiyyat nömrəsi və tarixi, hazırlayan texniki komitənin adı, qüvvəyəminmə tarixi) 1 (bir) iş günü müddətində milli standartlaşdırma qurumunun rəsmi internet saytında yerləşdirilir.

4.5. Texniki şərtlər hüquqi şəxsin rəhbəri (rəhbər müavini) tərəfindən titul vərəqində "Təsdiq edirəm" qrifi altında imza qoymaqla təsdiq edilir. Təsdiq edən və milli standartlaşdırma qurumunun rəhbərinin imzası, həmçinin texniki şərtin razılaşdırılmasına dair tarixlər möhürlə təsdiqlənməlidir. Texniki şərtlər fiziki şəxs tərəfindən titul vərəqində "Təsdiq edirəm" qrifi altında imza və tarix qoymaqla təsdiq edilir, milli standartlaşdırma qurumunun rəhbərinin imzası və razılaşdırmanın tarixi möhürlə təsdiqlənir.

4.6. Texniki şərtlər (bu Qaydaların 2.4.2-ci yarımbəndində göstərilən sənədlər toplusu ilə birlikdə) təsdiq edildikdən sonra milli standartlaşdırma qurumu tərəfindən 2 (iki) iş günü müddətində aşağıdakı məlumatlarla standartlaşdırma üzrə dövlət fonduna daxil edilir:

4.6.1. texniki şərtlərin adı və tam mətni;

4.6.2. texniki şərtləri hazırlayan təsərrüfat subyektinin adı, soyadı, ünvanı (hüquqi şəxsin hüquqi ünvanı) və VÖEN;

4.6.3. texniki şərtlərin qeydiyyat nömrəsi və tarixi.

## 5. Standartlaşdırma sahəsində normativ sənədlərdə dəyişiklik edilməsi

5.1. Standartlaşdırma sahəsində normativ sənədlərdə dəyişiklik standartlaşdırma subyektlərinin təşəbbüsü ilə aşağıdakı hallarda edilir:

5.1.1. standartlaşdırma sahəsində normativ sənədlərin mətninin dəyişdirilməsi və ya əlavə normaların daxil edilməsi, onun qüvvədəolma müddətinin uzadılması və ya dayandırılması zərurəti olduğu təqdirdə;

5.1.2. yeni növ məhsulun (malın) hazırlanmasında (istehsalında) istifadə olunan standartlaşdırma sahəsi üzrə normativ sənədlərin müddəalarının lazımi qədər əhatəli olmadığı və ya maneələr (məhdudiyyətlər) yaratdığı halda;

5.1.3. milli standartlaşdırma qurumu, səlahiyyətinə standartlaşdırma obyektləri daxil olan dövlət orqanları (qurumları) və standartlaşdırma üzrə texniki komitələr tərəfindən standartlaşdırma sahəsində normativ sənədlərin yoxlanılması zamanı çatışmazlıqlar aşkarlandıqda.

5.2. Standartlaşdırma sahəsində normativ sənədlərdə dəyişikliklərin (texniki xarakterli dəyişikliklər (ad və rəqəm) istisna olmaqla) razılaşdırılması, ekspertizası, qəbul edilməsi, dövlət reyestrinə və fonduna daxil edilməsi bu Qaydaların 2-4-cü hissələri ilə müəyyən edilmiş prosedura uyğun olaraq həyata keçirilir.

5.3. Standartlaşdırma sahəsində normativ sənədlərdə dəyişiklik edilməsi müddəti 90 (doxsan) iş günündən artıq olmamalıdır.

## 6. Standartlaşdırma sahəsində normativ sənədlərin nəşri

6.1. Dövlət standartı və ilkin dövlət standartı milli standartlaşdırma qurumu tərəfindən dövlət reyestrinə daxil edildikdən sonra 1 (bir) iş günü müddətində rəsmi nəşr edilərək dövlət fonduna daxil edilir.

6.2. Dövlət standartı və ilkin dövlət standartı ilə bağlı bu Qaydaların 4.3-cü bəndində qeyd edilən məlumatlar milli standartlaşdırma qurumunun rəsmi nəşrlərində dərc olunur.